"Balakən Azərbaycanın çox gözəl guşəsidir" İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ 8 (26) ✦ 31 avqust 2026-cı il

## DEPUTAT-İkitərəfli əlaqələrdən regional əməkdaşlığa keçid Bakı və Daşkənd üçün yeni imkanlar yaradır



İki gündür təkcə Bakı və Daşkənd deyil, eyni zamanda Cənubi Qafqaz və Mərkəzi Asiyanın, ümumilikdə isə Türk dünyasının diqqəti Azərbaycan Prezidentinin Özbəkistana baş tutan dövlət səfərinə yönəlib. Səfər proqramının kifayət qədər zəngin olması və iki ölkə arasında imzalanan sənədlərin təkcə Bakı və Daşkənd deyil, bütövlükdə böyük bir coğrafiya üçün faydalılıq əmsalı, Azərbaycan Liderinin səfərini daha diqqətçəkici edib.

Elə bu səbəbdəndir ki, beynəlxalq media resursları da Prezident İlham Əliyevin Özbəkistana dövlət səfərinə geniş yer ayıraraq bu səfərin Mərkəzi Asiya və Cənubi Qafqaz üçün faydalarını şərh edirlər. Birmənalı olaraq ifadə edilən fikir ondan ibarətdir ki, ciddi yüksəliş dövrünü yaşayan iki ölkənin əlaqələrinin genişləndirilməsi gələcək üçün perspektivli imkanlar vəd edir. Elə dövlət başçılarının görüşündən sonra mətbuata verdiyi verdikləri açıqlamada da bu məqam xüsusi olaraq qeyd edilirdi. Prezident İlham Əliyevin mətbuata verdiyi bəyanatda qeyd etdiyi kimi, bu gün Daşkənd və bütün Özbəkistan yüksəliş dövrünü yaşayır. Hər dəfə Daşkəndə səfər edəndə buraaa sürətli inkişafın şahidi olduğunu diqqətə çatdıran İlham Əliyev deyib ki, Özbəkistanın inkişafını hər sahədə görmək mümkündür. Özbəkistanın bugünkü yüksəlişinin əsasında isə prezident Şavkat Mirziyoyevin uğurlu siyasəti dayanır. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, qardaş ölkənin yüksəlişi, onun uğurlu inkişafı Şavkat Mirziyoyevin Özbəkistanın potensialının gücləndirilməsinə, beynəlxalq arenadakı mövqeyinin möhkəmləndirilməsinə və ən mühüm sosial-iqtisadi məsələlərin həllinə yönəlmiş fəaliyyətinin nəticəsidir. Məhz Mirziyoyevin rəhbərliyi altında uğurla həyata keçirilən siyasət Özbəkistanı dost, qardaş dövlətlərlə daha da yaxınlaşdırıb, əlaqələrin inkişafın üçün zəmin yaradıb.

Bu gün Bakı ilə Daşkənd arasında bütün istiqamətlərdə ən yüksək səviyyədə əməkdaşlığın mövcud olduğuna şahidlik edirik. İki ölkənin liderləri səviyyəsində mövcud olan yüksək səviyyəli münasibətlər, dostluq-qardaşlıq əlaqələri təkcə siyasi deyil, eləcə də iqtisadi-ticari, mədəni-humanitar, nəqliyyat, logistika əlaqələrinin inkişafı üçün zəmin yaradır, bu əlaqələri daha da dərinləşdirir və irəliyə aparır.

Elə Prezident İlham Əliyevin özbəkistanlı həmkarı ilə görüş zamanı mətbuata verdiyi bəyanatda iqtisadi əməkdaşlığın genişləndirilməsini xüsusi diqqət ayrılırdı. Bildiyimiz kimi, Azərbaycan və Özbəkistan arasında son illərdə qarşılıqlı ticarət və investisiya əlaqələrinin inkişafı üçün siyasi baza əhəmiyyətli dərəcədə möhkəmlənib. Ancaq burada bir məqamı da nəzərə almaq lazımdır ki, iqtisadi münasibətlər yalnız ticarətlə məhdudlaşmır. Dövlət başçısı bu məsələyə xüsusi diqqöət çəkməklə bildirdi ki, birgə müəssisələrin yaradılması, investisiya layihələrinin həyata keçirilməsi, sənaye kooperasiyasının genişləndirilməsi və yeni istehsal sahələrinin formalaşdırılması iki ölkə arasında iqtisadi tərəfdaşlığın əsas istiqamətlərindəndir.

Azərbaycanın qarşılıqlı faydalı əməkdaşlıq etdiyi ölkələrlə əlaqələrində enerji sahəsində əməkdaşlıq xüsusi yer tutur. Bu sahə Bakı-Daşkənd münasibətlərində də mühüm istiqamət təşkil edir. Hər iki ölkənin enerji resursları və enerji infrastrukturu sahəsində geniş imkanlara malik olması əməkdaşlıq üçün əlverişli zəmin yaradır. SOCAR-ın Özbəkistanda fəaliyyəti və iki ölkə arasında neft-qaz sahəsində əməkdaşlıq imkanlarının genişləndirilməsi xüsusilə diqqət mərkəzindədir. Prezident İlham Əliyev bu istiqamətə diqqət çəkərək bildirib ki, praktik olaraq, enerji, nəqliyyat, investisiya layihələri, turizm, dağmədən sahəsində əməkdaşlıq, avtomobil sənayesi, kənd təsərrüfatı və emal sektorlarından tutmuş bütün istiqamətləri əhatə etmişik:

"Hətta bu gün ikitərəfli formatda rəsmi tədbirlərin sonunda yeni layihələrin təməlini qoyarkən və ya yeni layihələrə başlayarkən belə, bu layihələrin sadalanması əməkdaşlığımızın nə qədər çoxşaxəli olduğunu nümayiş etdirmək üçün kifayətdir. Bəli, mən hələ bankçılıq sahəsindəki əməkdaşlığımızı, aparıcı Azərbaycan bankının Özbəkistan bazarına və SOCAR-ın Özbəkistanın pərakəndə satış bazarına daxil olmasını xatırlatmağı unutmuşam. Neft və qaz kəşfiyyatı ilə bağlı layihələrdə isə biz artıq prinsipcə son mərhələdəyik və gələn il istismar quyularının qazılmasına başlamağa çox ümid edirik. Ümidvaram ki, bundan sonra kəşfiyyat-qazma və kəşfiyyat işləri yaxşı nəticələr verəcək".

Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfərinə yalnız ikitərəfli əməkdaşlıq prizmasından yanaşmaq doğru olmazdı. Görünən odur ki, Azərbaycanla Özbəkistanın münasibətləri yalnız Bakı–Daşkənd xətti ilə məhdudlaşmır. İkitərəfli əlaqələr öz növbəsində regional əməkdaşlığa, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin genişləndirilməsinə yol açır. Bu paralel olaraq həm də Özbəkistanın Cənubi Qafqaz və Xəzər regionu ilə əlaqələrinin inkişafı baxımından faydalıdır. İkitərəfli əlaqələrdən regional əməkdaşlığa keçid həm Bakı, həm də Daşkənd üçün əlavə nəqliyyat və logistika əməkdaşlığı imkanları yaratmışı olur.

Məlum olduğu kimi, Azərbaycan və Özbəkistan arasında əməkdaşlığın ən perspektivli istiqamətlərindən biri nəqliyyat və logistika sahəsidir. Azərbaycan Xəzər dənizi üzərindən Mərkəzi Asiyanı Cənubi Qafqaz və Avropa ilə birləşdirən marşrutların inkişafında mühüm mövqeyə malikdir. Özbəkistanın isə Mərkəzi Asiyanın mühüm iqtisadi mərkəzlərindən biri olması bu əməkdaşlığın əhəmiyyətini daha da artırır. Bir sözlə, iki ölkənin nəqliyyat imkanlarının əlaqələndirilməsi və koordinasiyalı iş, ümumilikdə Orta Dəhlizin inkişafına təkan verə bilər. Bu isə daha geniş mənada, Asiya ilə Avropa arasında səmərəli nəqliyyat bağlantılarının genişləndirilməsi deməkdir. Özbəkistanın Azərbaycanın tranzit və logistika imkanlarından istifadə etməsi bu ölkənin beynəlxalq bazarlara çıxış imkanlarını genişləndirə bilər ki, bu da öz-özlüyündə digər Mərkəzi Asiya ölkələrində də maraq yaratmış olar.

Bakı ilə Daşkəndi bir-birinə yaxın edən, ikitərəfli münasibətlərdə möhkəm bağların yaranmasına təsir göstərən mühüm amillərdən biri də hər iki ölkənin ərazi bütövlüyü və suverenliyi məsələsində qarşılıqlı dəstək nünayiş etdirməsi, haqqı işi uğrunda aparılan işdə bir-birinin yanında yer almasıdır. Necə ki, 44 günlük Vətən Müharibəsində tarixi zəfərimizdən sonra Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq-abadlıq işlərinə digər dost-qardaş ölkələr kimi, Özbəkistandan da eyni dərəcədə həssaslıq və dəstək gördük. Özbəkistan investisiya hesabına Füzulidə məktəb binası, Xankəndidə tikiş fabrikinin tikilməsi bunun əyani sübutudur və Azərbaycan Prezidenti Cənab İlham Əliyev mətbuata bəyanatı zamanı bu məqamı xüsusi olaraq qeyd etdi və Özbəkistan Prezidentinin bu məsələdə müstəsna rolunu vurğuladı:

"Prezident Şavkat Miromonoviç Mirziyoyevin Qarabağa investisiya cəlb edilməsində müstəsna rolunu bir daha qeyd etmək istərdim. İlk yardım – Füzulidə Mirzə Uluqbəy adına 960 şagird yerlik məktəbin tikintisi və Xankəndidə tikiş fabrikinə investisiyalar Özbəkistandan gəldi. İlk böyük sənaye müəssisəsi də Özbəkistanla bağlıdır. Həm Qarabağ bölgəsində, həm də bir çox digər bölgələrdə əlavə qarşılıqlı fəaliyyət planları mövcuddur".

**Nəsib Məhəməliyev,**
**Milli Məclisin deputatı**

## Balakəndən Günəbaxan Yağ Zavoduna Uzanan Yol – Sahibkarın Dövlət Proqramına Cavabı




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 may 2026-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı" bölgələrdə geniş müzakirə olunur. İyunun 23-də Şəki-Zaqatala iqtisadi rayonunda keçirilən regional müşavirədə dövlət qurumlarının nümayəndələri, Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonlarından olan fermerlər və sahibkarlar iştirak edərək proqramın icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Müşavirədə iştirak edənlər arasında Balakənli iş adamı Sərxan Kəltəpə də vardı. O, 2008-ci ildən sahibkarlıq fəaliyyəti ilə məşğuldur. İlk illərdə əkin-biçinlə başlayan yolunu 2017-ci ildən qarğıdalı toxumunun idxalı və satışı ilə genişləndirib. Ardınca aqrokimyəvi maddələrin, kənd təsərrüfatı üçün aqreqatların, ehtiyat hissələrinin, pilot suvarma sistemlərinin idxalı və satışı ilə fəaliyyətini daha da böyüdüb.

2020-ci ildə isə Azərbaycanın ilk hibrid qarğıdalı toxumunu istehsal edərək əkininə başladı. Bu toxum bölgənin şəraitinə uyğunluğu və yüksək məhsuldarlığı ilə fermerlər arasında geniş yayılıb. 2021-ci ildə müasir toxum zavodu və qarğıdalı, paxlalı bitkilərin qurudulması müəssisəsini quraraq istehsal həcmini artırdı. 2024–2025-ci illərdə respublikanın bir neçə bölgəsində iri həcmli pilot sistemləri quraraq yerli istehsal sahələrini daha da inkişaf etdirdi.

Sərxan Kəltəpə Dövlət Proqramı çərçivəsində yeni layihələrə start verib. Onun ən böyük təşəbbüsü Balakəndə Günəbaxan Yağ Zavodunun qurulmasıdır. Hazırda Kürdəmir rayonunda günəbaxan əkini üçün sahələrdə suvarma sistemləri quraşdırılır, Balakəndə isə zavodun layihələndirilməsi və sifariş işləri davam edir. Zavodun 2027-ci ildə tam gücü ilə fəaliyyətə başlaması, xammal və hazır məhsul anbarlarının, istehsal xətlərinin istifadəyə verilməsi nəzərdə tutulur. Bu müəssisə təkcə Balakən deyil, ətraf bölgələrin də məhsullarını emal edəcək.

Sahibkar bununla kifayətlənməyəcəyini, gələcəkdə ətçilik, südçülük və quşçuluq sahələrində də orqanik məhsullar istehsal edərək ölkənin ərzaq təminatına töhfə verəcəyini bildirib. Dövlətin aqrar sahəyə göstərdiyi diqqət və dəstəyə görə Prezident İlham Əliyevə təşəkkürünü ifadə edən Sərxan Kəltəpə, öz əməli fəaliyyəti ilə bu çağırışa cavab verdiyini vurğulayıb.

Ali təhsilini biznesin idarə edilməsi üzrə almış, maliyyə sahəsində magistr dərəcəsi qazanmış iş adamı ailə dəyərlərinə də bağlıdır. O, evli, bir oğlu və üç qızı olmaqla dörd övlad atasıdır.



Yeni Dövlət Proqramı çərçivəsində bölgələrdə həyata keçirilən layihələr Azərbaycanın aqrar potensialını daha da gücləndirəcək. Balakənli sahibkar Sərxan Kəltəpənin təşəbbüsləri isə bu inkişafın canlı nümunəsidir. Onun qurduğu müəssisələr və planlaşdırdığı layihələr həm regionun, həm də ölkənin ərzaq təhlükəsizliyinə mühüm töhfə verəcək.

**Yeni Balakən**

## Balakəndə Su Problemi: Uçotdan Kənarda Qalan Həqiqətlər

Yazılarımızın birində qeyd etmişdik ki,Balakən rayonu suyun olmamasından deyil,suyun olmasından əziyyət çəkir.Balakənin içməli və suvarma su ehtiyacı rayondan axan çaylarla yanaşı qazılmış artezian quyuları vasitəsilə təmin edilir.Həmçinin tullantı, çirkab suları kanalizasiya,sel,yağış suları isə arxlar,kanallar vasitəsilə xaric olunur.Nəzəri olaraq belədir amma gəl bir də praktikada baxaq necədir.Xidmət düzgün qurulubmu,dəqiq,yenilənən uçot aparılırmı,umimi vəziyyət necədir?Rayonun bu sahədəki probleminin səbəbi,həlli yolları da məhz bu sualların cavabındadır.

Araşdırmamız zamanı məlum olmuşdur ki,rayonun istər su kanal şəbəkəsinə,istərsə də artezian quyularına xidmət həcmi və bu xidmət üçün maliyyə Balakən Su Meliorasiya Sistemləri İstismarı İdarəsinə 1991-ci ildə,düz 35 il əvvəl tərtib olunmuş uçot xəritəsi əsasında ayrılır.Bu 35 ildə çox şey dəyişib amma nə uçot xəritəsi,nə də ayrılan maliyyə dəyişməyib.Belə ki,Balakən Su Meliorasiya Sistemləri İstismarı İdarəsi 1991-ci ildə tərtib olunmuş uçot xəritəsinə əsasən ümumilikdə 209.42 km kanal şəbəkəsinə xidmət göstərir.Amma 1991-ci ildən bu yana kanalların sayı və uzunluğu artmış,509.42 km uzunluğa çatmışdır.Bu da o deməkdir ki,təxminən ümumi uzunluğu 300 km olan kanal idarənin balansına, qeydiyyata alınmamışdır.Bu gün bu kanalların bir çoxu yiyəsiz olduğu,sahibsiz qaldığı üçün vətəndaşlar tərəfindən doldurulur,bəzilərinin içində böyük ağaclar bitib hansı ki,onlara artıq Ekologiya Nazirliyi əl dəyməyə qoymur,bəzilərini kol-kos basıb..Əgər idarənin balansında olsa hökümət tərəfindən maliyyə ayrılar,idarə xidmət göstərər,qısacası sahibi tapılardı.Həmçinin artezian quyuları da.1991-ci ilin uçot xəritəsinə əsasən idarə 204 artezian quyusuna xidmət göstərir.Amma faktiki olaraq bu gün 307-dən artıq artezian quyusu vardır.Beləliklə 103 quyu konkret olaraq qeydiyyatda deyil və Allah ümidinə buraxılıb.Son illərdə güclü yağışlar yağır,nəticədə sel suları vətəndaşların evlərinə,şəxsi təsərrüfatlarına,rayonun kənd təsərrüfatına ciddi ziyan vurur,əkin-biçini,mal-qarasını,toyuq –cücəsini,meyvə bağlarını,infrastrukturu məhv edir.Niyə?Bu yağışlar keçmişdə də yağırdı,o zaman yağan yağış,sel suları işlək,saz vəziyyətdə olan kanallar vasitəsilə nəzarətə alınır,yönləndirilərək xaric edilirdi.İndi o kanalların 300 km-i qeyri işlək,sahibsizdir.Sel sularını götürə,ötürə bilmir baxımsızlıqdan..

İçməli su əsasən dağ çaylarının hesabına təmin olunduğundan bir balaca yağış yağan kimi o çaylar bulanır,uzun müddət durulmur,sel olanda da dağlardakı daşıyıcı su boruları qırılır,selin qabağına düşərək axıb gedir.Yay aylarında güclü istilər nəticəsində çayların suyu azalır.Bu da öz növbəsində həftələrlə rayonda suvarma və içməli su problemi yaradır.Qeydiyyata alınmayan 103 artezian quyusu da qeydiyyata alınsa,xidmət göstərilsə heç bir su problemindən söhbər belə ola bilməz.Halbu ki,Balakən rayonu istənilən fəsildə,istənilən şəraitdə su problemi yaşayacağı rayon deyil.Çünki suyu var və boldur.Sadəcə xidmət zəifdir.Hətta təklif edərdik ki,dağlardan keçərək gələn su xətlərinin dağlardan keçən hissəsini təpələrin ətəyində,dərənin dibindən torpaq üzərində deyil də,iki tərəfdən o sərt qayalara bərkidilmiş polad troslarla yerdən hündürdə,havadan çəkilsin.Hövzədən çıxışının 100 metrəyə yaxın hissəsi rezin,elastik borularla çıxış verilərək sonradan dəmir boruya keçid edilsin.Boruların üzəri də pena dediyimiz köpüklə izolyasiya edilsə içəridəki su yayda dağ sərinliyində qalar,qışda donma təhlükəsindən qorunar...



### TƏKLİF OLUNAN HƏLL YOLLARI

Uçotun yenilənməsi – bütün kanallar və artezian quyuları balans uçotuna alınmalı, maliyyə ayrılmalıdır.

Texniki modernizasiya – dağlardan gələn su xətləri torpaq üzərində deyil, polad troslarla havadan çəkilməli, elastik borular və izolyasiya ilə möhkəmləndirilməlidir.

Maliyyə və xidmətin artırılması – idarəyə ayrılan vəsait real şəbəkə uzunluğuna uyğunlaşdırılmalıdır.

İctimai nəzarət – sahibsiz qalan kanalların doldurulması və məhv edilməsinin qarşısı alınmalıdır.

Balakən sakinləri Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən yuxarıda qeyd olunanaları nəzərə alaraq mövcud kanalların və artezian quyularının balans uçotuna alınmasını xahiş edir.

Balakən suya möhtac rayon deyil. Əksinə, su ehtiyatı boldur. Problem xidmətin zəifliyi və köhnəlmiş uçot sistemindədir. Əgər bu məsələlər dövlət səviyyəsində həllini tapsa, Balakən həm içməli, həm də suvarma suyu ilə tam təmin olunacaq.

Yeni Balakən qəzetinin araşdırması göstərir ki, su problemi kağız üzərində deyil, real uçot və xidmətlə həll oluna bilər.

**Yeni balakən**

# Kəndlərdə görüşlər



Avqust ayında Balakənin Meşəşambul, Ağkilsə, Bedağar, Məlikzadə kəndlərində Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev səyyar qəbullar keçirərək vətəndaşları qəbul etmiş,onları dinləmişdir. Rəhbər çıxış edərək ictimai-siyasi sahədə baş verən mühüm hadisələrə toxunub, qarşıda duran vəzifələrdən danışıb. Həmçinin ölkəmizdə əhalinin rifahının yaxşılaşdırılması istiqamətində atılan addımlar, həyata keçirilən sosial siyasətdən bəhs edib. Balakən rayonunda icra olunan abadlıq-quruculuq işləri və əhalinin sosial problemlərinin həlli ilə bağlı görülən tədbirlər barədə iştirakçılara ətraflı məlumat verib. Vətəndaşların müraciətləri ayrı-ayrılıqda dinlənilib, məsələlər müzakirə edilib və həll olunması üçün aidiyyəti üzrə tapşırıqlar verilib.Vətəndaşlar problemlərinin həlli istiqamətində göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq tapşırıq və tövsiyələrinə uyğun olaraq keçirilən səyyar görüşlər mütəmadi olaraq davam etdirilir.

**Yeni Balakən**



# BALAKƏN GƏNCLƏR FESTİVALI – GƏNCLİYİN BAYRAMI






12 avqust 2026-cı il Balakən şəhərinin yaddaşına unudulmaz bir gün kimi yazıldı. Heydər Əliyev adına parkda keçirilən Balakən Gənclər Festivalı respublikanın müxtəlif bölgələrindən gələn yüzlərlə gənci bir araya topladı. Bu tədbir gənclərin bilik, bacarıq, istedad və yaradıcılıqlarını nümayiş etdirmək üçün geniş bir meydan oldu.

Festivalın ruhu- Parkın hər küncündə gənclərin hazırladığı sərgilər, əl işləri, texnologiya nümunələri və incəsənət əsərləri nümayiş etdirildi. Rəngarəng stendlər, STEAM layihələri, kitab sərgiləri və interaktiv oyunlar festival iştirakçılarına həm öyrədici, həm də əyləncəli anlar yaşatdı.

Musiqi və rəqs gecəsi. Axşam saatlarında səhnədə gənclərin ifasında musiqi nömrələri, rəqs kompozisiyaları təqdim olundu. Gənclərin enerjisi və yaradıcılığı parkı bayram ab-havasına bürüdü. Tədbir gecənin gec saatlarına qədər davam edərək Balakən sakinlərinə və qonaqlara unudulmaz anlar yaşatdı.

Təşkilatçılar və dəstəkçilər: Festival Gənclər və İdman Nazirliyi, Balakən Rayon İcra Hakimiyyəti, Mədəniyyət Nazirliyinin Şəki-Zaqatala Regional İdarəsi, Elm və Təhsil Nazirliyinin Balakən Təhsil Sektoru, Turan Tədris Mərkəzi, mobil operatorlar Nar və Bakcell, eləcə də müxtəlif gənclər evlərinin və təşkilatların dəstəyi ilə baş tutdu. Balakən, Göyçay, Ucar, Goranboy, Göygöl, Gəncə Gənclər Evi, STEAM Azərbaycan Zaqatala, “Balvin Natural”, “Kitab Karvanı”, “Bala Oyun” və digər tərəfdaşların iştirakı festivalı daha da zənginləşdirdi.

Balakən Gənclər Festivalı bir tədbirdən daha çox, gəncliyin gücünü, yaradıcılığını və birliyini nümayiş etdirən böyük bir bayram oldu. Bu gün Balakən gənclərin səsi, rəngi və enerjisi ilə doldu. Festival həm rayonun ictimai-mədəni həyatında, həm də gənclərin yaddaşında uzun illər qalacaq.

**Ramazan Abal**










# Media və Yayım Şurasına əlavə hüquq və vəzifələr verildi



Medianın İnkişafı Agentliyi və Audiovizual Şuranın əsasında yaradılan Media və Yayım Şurası Azərbaycan Respublikasında media və yayım sahəsində səlahiyyətli dövlət orqanı olacaq.

Bu, Prezident İlham Əliyevin tətbiqi barədə Fərman imzaladığı “Media haqqında” qanuna dəyişikliklərdə əksini tapıb.

Media və Yayım Şurasına əlavə hüquq və vəzifələr də verilib. Yeni hüquqlar aşağıdakılar olacaq:

- media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi istiqamətində tədbirlər görmək;
- dövlət orqanları (qurumları) ilə media subyektləri arasında əməkdaşlığın genişləndirilməsi və möhkəmləndirilməsi, dövlət orqanlarının (qurumlarının) media subyektləri ilə əlaqələrinin təkmilləşdirilməsi və qarşılıqlı etimadın artırılması ilə əlaqədar tədbirlər həyata keçirmək;
- jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması, media sahəsində mütəxəssislərin hazırlanması və əlavə təhsilinin təşkili məqsədilə tədbirlər (təlimlər, seminarlar və s.) həyata keçirmək, həmçinin media nümayəndələri üçün müsabiqələr təşkil etmək;
- əhalinin və ya müəyyən təbəqənin maarifləndirilməsinə, ictimai normalara uyğun davranış qaydalarının formalaşdırılmasına, onların diqqətinin cəmiyyətdəki aktual məsələlərə cəlb edilməsinə yönəlmiş proqramları və materialları sifariş vermək və mediada yayımlanmasını təmin etmək;
- audiovizual məhsulların istehsalı və yayımı üzrə dövlət sifarişçisi kimi çıxış etmək, bu məqsədlə müsabiqələr keçirmək;
- cəmiyyətdə baş verən hadisələrin, dövlət siyasətinin mediada ədalətli, balanslı, obyektiv, qərəzsiz işıqlandırılmasına, media subyektlərində peşə etikası (etik davranış) qaydalarına riayət edilməsinə, vətəndaşın, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyinin təmin olunmasına istiqamətlənmiş layihələrin həyata keçirilməsi üçün tədbirlər görmək;
- media subyektlərinin inkişafına, iqtisadi müstəqilliyinin gücləndirilməsinə, fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsini təşkil etmək, bu məqsədlə müsabiqələr keçirmək;
- nəzərdə tutulan müsabiqə qaydalarını təsdiq etmək;
- media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması istiqamətində tədbirlər görmək;
- dezinformasiyanın yayılmasının qarşısının alınması, o cümlədən onun aşkarlanması, qiymətləndirilməsi və aradan qaldırılması istiqamətində tədbirlər görmək;
- dezinformasiyanın yayılması risklərinin azaldılması və nəticələrinin minimuma endirilməsi məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) ilə birgə operativ əlaqələndirmə mexanizmlərini qurmaq və fəaliyyətini təmin etmək;
- media subyeklərinin fəaliyyəti ilə bağlı təhlillər aparmaq, habelə ictimai rəyin öyrənilməsini təşkil etmək;
- informasiya mühitinin təhlili və sosioloji sorğular əsasında ictimai rəyi, dövlət və cəmiyyət arasında qarşılıqlı münasibətlərin inkişaf dinamikasını və tendensiyalarını, dövlət orqanlarının (qurumlarının) fəaliyyəti ilə bağlı ictimai fikri öyrənmək, cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələləri müəyyən etmək və təkliflər vermək;
- mediada, o cümlədən sosial şəbəkə platformalarında rəqəmsal məzmunun təhlilini həyata keçirmək və nəticəsinə uyğun tədbirlər görmək;
- media subyektlərinin fəaliyyəti qanunla nəzərdə tutulan tələblərə cavab vermədikdə, bununla bağlı tədbir görülməsi məqsədilə aidiyyəti üzrə müraciət etmək;
- Media Reyestrini formalaşdırmaq, aparmaq, ondan istifadə edilməsinə və məlumatların mühafizəsinə nəzarət etmək;
- Media Reyestrinə daxil edilmiş media subyektlərinə Media Reyestri şəhadətnaməsi, jurnalistlərə isə jurnalist vəsiqəsi vermək;

Yeni quruma əlavə olaraq aşağıdakı vəzifələr şamil olunacaq:

- xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;
- media sahəsində peşə (etik) davranış qaydalarına riayət edilməsi üzrə araşdırmalar aparmaq və bu istiqamətdə tövsiyələr hazırlamaq;
- “Reklam haqqında” qanuna uyğun olaraq sosial reklamlar sifariş vermək;
- fəaliyyət istiqamətlərinə uyğun olaraq təhlillərin aparılması, sorğuların keçirilməsi, hesabatların, rəy və təkliflərin hazırlanması məqsədilə fiziki və hüquqi şəxslərə sifarişlər vermək;
- fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;
- istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;
- səlahiyyətlərinə aid edilmiş məsələlərlə bağlı məhkəmələrdə müvafiq prosessual qanunvericilikdə nəzərdə tutulmuş hüquqları həyata keçirmək;
- “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;
- strukturuna daxil olmayan tabeliyindəki qurumların yaradılması, yenidən təşkil və ləğv edilməsi üçün təkliflər vermək.

Şuranın sədri və üzvləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən vəzifəyə təyin və vəzifədən azad ediləcəklər. Şuranın üzvləri öz aralarından sadə səs çoxluğu ilə 2 (iki) sədr müavini seçəcəklər.

**Yeni Balakən**

# 2026-cı ilin yanvar-iyun aylarında Balakən rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri

**Ümumi məhsul buraxılışının həcmi** 2025-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 2026-cı ilin yanvar-iyun aylarında 5,5 faiz artaraq 156503,3 min manat təşkil etmişdir. ***Məhsul buraxılışının 27,2 faizi sənaye, 1,3 faizi tikinti, 31,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,2 faizi informasiya və rabitə, 34,7 faizi isə ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində istehsal edilmişdir.***

**Sənaye** müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2026-cı ilin yanvar-iyun aylarında 42543,6 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,1 faiz çox sənaye məhsulu istehsal edilmişdir.

Sənaye məhsulunun 85,9 faizi emal sektorunda, *12,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda və 1,2 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.*

*İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 iyul 2026-cı il vəziyyətinə 59,3 min manatlıq hazır məhsul olmuşdur.*

**Kənd təsərrüfatında** yaz-tarla işləri başa çatmışdır. 2026-cı il iyul ayının 1-nə kimi 9443,5 hektar sahədə yazlıq bitkilər, o cümlədən 7701,5 hektar sahədə dənli və dənli paxlalı bitkilər (ondan 7591,0 hektarı dən üçün qarğıdalı), 289,0 hektar sahədə kartof, 667,0 hektar sahədə tərəvəz, 153,0 hektar sahədə bostan bitkiləri, 44,0 hektar sahədə tütün və 589,0 hektar sahədə isə çoxillik otlar əkilmişdir.

2026-cı il iyul ayının 1-nə kimi tarlalardan 3533,7 ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 10,1 faiz çox dənli və dənli paxlalı bitkilər, 2300,0 ton (2,3 faiz çox) kartof, 6219,0 ton (0,4 faiz çox) tərəvəz, 986,0 ton (4,7 faiz çox) bostan məhsulları, 3095,0 ton (2,6 faiz çox) meyvə və giləmeyvə və 24,6 ton (59,7 faiz az) tütün yığılmışdır.

2026-cı ilin yanvar-iyun aylarında diri çəkidə 2290,3 ton ət, 12122,9 ton süd və 5628,0 min ədəd yumurta və 44,0 ton yun istehsal edilmiş, 2025-ci ilin müvafiq dövrünə nisbətən ət istehsalı 3,3 faiz, süd istehsalı 3,1 faiz, yumurta istehsalı 2,0 faiz və yun istehsalı 3,8 faiz artmışdır.

2026-cı il iyul ayının 1-i vəziyyətinə 39302 baş qoyun və keçi, 28454 baş iribuynuzlu mal-qara, o cümlədən 13440 baş inək və camış mövcud olmuşdur.

2026-cı ilin yanvar-iyun aylarında kənd təsərrüfatının ümumi məhsulu 49597,3 min manat olmaqla əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz artmışdır.

2026-cı ilin yanvar-iyun aylarında **əsas kapitala** 7192,1 manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 23,9 faiz çox investisiya yönəldilmişdir.

**Nəqliyyat sektorunda** fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2026-cı ilin yanvar-iyun aylarında 383,0 min ton **yük** və 4225,0 min **sərnişin** daşınmışdır. 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 5,5 faiz, sərnişin daşınması isə 6,8 faiz artmışdır.

**İnformasiya və rabitə** müəssisələri tərəfindən **2026-cı ilin yanvar-iyun aylarında** 1842,5 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 12,2 faiz az xidmət göstərilmişdir.

2026-cı ilin yanvar-iyun aylarında **pərakəndə ticarət** şəbəkəsindən əhaliyə 164631,4 min manatlıq məhul satılmış, xidmət subyektləri tərəfindən 43368,3 min manatlıq **ödənişli xidmət göstərilmişdir. 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə** əmtəə dövriyyəsi 0,3 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir isə 8,1 faiz artmış, ticarət şəbəkəsində 111939,0 ***min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları,*** 52692,4 ***min manatlıq qeyri-ərzaq malları satılmışdır.***

2026-cı ilin yanvar-may aylarında muzdlu işçilərin **orta aylıq nominal əməkhaqqı** 2025-ci ilin müvafiq dövrünə nisbətən 4,6 faiz artaraq 639,5 manat təşkil etmişdir.

2026-cı ilin yanvar-iyun aylarında **əhalinin sayı** 31 nəfər və ya 0,03 faiz artaraq 2026-cı il iyul ayının 1-i vəziyyətinə 101314 nəfərə çatmışdır.

***Əsəbəli Alqayev***
***Balakən Rayon Statistika İdarəsinin rəisi***

# Balakəndə "Abad məhəllə" layihəsinin icrasına start verildi





"Abad məhəllə" layihəsi Azərbaycan şəhərlərində yaşayış binalarının həyətlərini yenidən qurmaq, sakinlərin rahatlığı və istirahəti üçün müasir şərait yaratmaq məqsədi daşıyan genişmiqyaslı abadlıq təşəbbüsüdür. Bu layihə çərçivəsində binaların fasadları və giriş blokları yenilənir, uşaq və idman meydançaları salınır,görülən əsas işlər belə sıralanır:

Binaların təmiri: Yaşayış binalarının fasadları əsaslı təmir olunur, rənglənir, blok qapıları və pəncərələri dəyişdirilir.

İstirahət zonaları: Yeni söhbətgahlar (besedkalar), oturacaqlar quraşdırılır və yaşıllıq zolaqları salınır.

İdman və əyləncə: Uşaqlar üçün oyun meydançaları və sağlamlıq üçün açıq hava idman qurğuları quraşdırılır.

İnfrastruktur: Məhəllədaxili yollara tamet daşları düzülür, səkilər yenilənir və müasir işıqlandırma sistemləri çəkilir.

Səliqə-sahman: Zəbt olunmuş və ya yararsız vəziyyətdə olan köhnə tikililər, çəpərlər sökülərək ərazi təmizlənir.

"Abad məhəllə" layihəsi paytaxt Bakıdan sonra regionlarda da uğurla icra olunur. Vətəndaş məmnunluğuna xidmət edən belə layihələrdən birinə bu gün Balakən şəhərində icrasına başlanılıb.Belə ki, Balakən Rayon Mənzil İstismar Müəssisəsinin təşəbbüsü ilə şəhərin M.Müşfiq küçəsindəki çoxmənzilli binaların həyətlərinin yenidən bərpası və abadlaşdırılması istiqamətində işlər həyata keçirilib.Əməkdaşlar tərəfindən ərazi tullantılardan,alaq otlardan,kollardan təmizlənib,ağaclar budanıb,cari təmir işləri həyata keçirilib,ətrafda səliqə-səhman yaradılaraq ərazi qaydaya salınıb.Xoş təsir bağışlayan gözəl ab-hava yaradan işlər görülüb. Həyata keçirilən abadlıq işləri ilk növbədə sakinlərin rahatlığına xidmət edir.Bu hələ başlanğıcdır, layihə şəhərin bütün yaşayış binalarını,onların yerləşdiyi ərazini əhatə edəcək.

Müəssisə belə təşəbbüslə,gördüyü işlərlə sakinlərə xidmət etməkdən məmnunluq hissi keçirdiyini bildirir.

Sakinlərimizə müraciətimiz:-Ətraf mühitin təmizliyinə qarşı diqqətli,çəkilən zəhmətə,əməyə duyarlı olmaları,doğma şəhərimizi təmiz saxlamalarıdır.

**Yeni Balakən**

# Balakən rayonunda atçılıq idmanının inkişafı istiqamətində işlər davam etdirilir





Balakən rayonunda atçılıq idmanının inkişaf etdirilməsi, bu sahəyə marağın artırılması və rayonun turizm potensialından daha səmərəli istifadə olunması məqsədilə bir sıra tədbirlər həyata keçirilir.

Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevin tapşırığına əsasən, rayonda cıdır meydanının yaradılması üçün ərazi müəyyənləşdirilmiş, ərazidə hamarlama və ilkin hazırlıq işləri həyata keçirilmişdir.

Layihənin icrası çərçivəsində atçılar və idmançıların iştirakı ilə ərazidə iməcilik təşkil olunmuş, cıdır meydanının hazırlanması istiqamətində görülən işlərə dəstək göstərilmişdir.

Cıdır meydanının yaradılması gələcəkdə atçılıq idmanının inkişafına, yerli və digər bölgələrdən olan atçıların yarışlarda iştirakına imkan yaratmaqla yanaşı, Balakənin turizm potensialının artırılmasına da töhfə verəcəkdir. Eyni zamanda, atçılıq ənənələrinin yaşadılması xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Görülən işlərin nəticəsində Balakəndə atçılıq idmanının inkişafı üçün əlverişli şəraitin yaradılması, gələcəkdə müxtəlif yarış və tədbirlərin keçirilməsi, eləcə də bu istiqamətin rayonun turizm imkanlarının tanıdılmasına xidmət etməsi nəzərdə tutulur.

**Yeni Balakən**

# Balakən Mədəniyyət və İstirahət Parkında iməcilik: Yaşıllığın qorunması üçün birgə addım





Balakən şəhərinin ən gözəl guşələrindən biri olan Mədəniyyət və İstirahət Parkı 27 hektarlıq ərazisi ilə həm sakinlərin, həm də qonaqların sevimli istirahət məkanıdır. Burada uzunömürlü, həmişəyaşıl ağaclar, gül kolları və qazon örtüyü parkı yaşıl cənnətə çevirir. Yaşıllığın sirri isə sudadır – oksigen, gözəllik və sərinlik məhz su ilə mümkündür.

Keçən ay Balakən çayının daşması nəticəsində yaranan sel fəlakəti parkı da zərərsiz qoymadı. Ərazinin bəzi hissələri lillənmiş, su xətlərində qırılmalar baş vermişdi. Üstəlik, yağışsız günlər parkın yaşıllığının sulanmasında çətinlik yaradırdı.

Bu gün səhər saatlarında rayon icra hakimiyyətinin təşəbbüsü ilə kiçik iməcilik təşkil olundu. Parkın təmizlənməsi, sulanması, qırılan su xətlərinin bərpası həyata keçirildi. İstər rəhbər, istər işçi – hər kəs bu xeyirxah işə qoşuldu, hərə bir işin qulpundan yapışdı. Bu həm əməkdaşlıq, həm də təbiətə sevgi nümunəsi idi.

Parkın gələcəkdə daha da gözəlləşdirilməsi, xidmət və əyləncə sahələrinin artırılması nəzərdə tutulur. Aidiyyəti təşkilatlar onun abadlaşdırılması, sulanması və təmizliyi üçün çalışacaq. Lakin bu iş yalnız onların deyil, həm də sakinlərin borcudur. Çünki parkı qorumaq, zibilləməmək, yaşıllığı qırmamaq hər birimizin vətəndaşlıq məsuliyyətidir.

Bizdən sonrakı nəsillərin də bu gözəllikdən faydalanmaq haqqı var. Ona görə də gəlin, gələcəyin haqqına girməyək – bizə əmanət edilən bu yaşıllığı salamat şəkildə gələcək sahiblərinə çatdıraq.

**Yeni Balakən**

# "İnkişafın kölgəsində məsuliyyətsizlik – Balakənin küçələrində mal-qara problemi"



İllər keçdikcə elm və texnika sürətlə inkişaf edir. Müasir avadanlıqlar, yüksək texnologiyalar insanların rahatlığı, komfortu və sağlam həyatı üçün yaradıldığı deyilsə də, paradoksal bir mənzərə ortaya çıxır: həyat daha çox təhlükəyə məruz qalır, ekoloji kirlilik artır, gündəlik yaşayış çətinləşir. Deməli, inkişafla yanaşı unudulan dəyərlər də var – mədəniyyət, düşüncə, tərbiyə, ağıl və məsuliyyət.

Balakən gözəl rayondur, insanları saf və imanlıdır. Rayonun tarixi 1930-cu ildən başlayır, müxtəlif inzibati dəyişikliklərdən keçsə də, 2000-ci ildən sonrakı "qızıl onillikdə" sürətli inkişafla şəhərsalma yönündən gözəlliklərə sahib olmuşdur: parklar, yaşıllıqlar, işıqlı küçələr, səliqəli səkilər. Lakin bu inkişafın fonunda yeni problemlər də üzə çıxır. Demoqrafik artım o qədər nəzərə çarpmasa da, avtomobillərin sayı sürətlə çoxalıb. Küçələrdə sıxlıq, tıxac, hava və səs kirliliyi, avtoqəzalar artıb. Bu, maddi imkanların artması ilə düşüncənin azalmasının bariz nümunəsidir.

Ən acınacaqlı mənzərələrdən biri isə şəhər küçələrində başıboş dolaşan inəklərdir. Sanki maşınların yaratdığı manеələr azmış kimi, bu heyvanlar da qəza şəraiti yaradır, yaşıllıqları məhv edir, şəhərin ortasında peyin yığını qoyub gedirlər. Heyvanın ağlı yoxdur, bəs sahibinin? Mal-qaranın baxımsız, nəzarətsiz küçələrə çıxması həm rayonun infrastrukturuna ziyan vurur, həm də sahibini cərimələrlə üzləşdirir. Ən təhlükəli məqam isə magistral yollarda baş verir. Balakəndən keçən beynəlxalq yük maşınlarının qarşısına çıxan inək bir anda həm öz həyatını, həm də minlərlə manatlıq yükün taleyini məhv edə bilər. Zərərin miqyasını ən yaxşı heyvan sahibi bilir.

Son zamanlar şəhərdə çoxalan mal-qara əsasən yaxın kəndlərdən gəlir. Əvvəllər belə heyvanlar tutulub köhnə binanın həyətində saxlanılır, sahibinə cərimə tətbiq edilirdi. Görünür bu tədbir yumşaq idi. Daha sərt tədbirlər qaçılmaz görünür. Məsələn, xəbərdarlıqdan sonra təkrar küçəyə çıxan heyvanın kəsilərək uşaq evlərinə, internat məktəblərinə xeyriyyə məqsədilə verilməsi həm sosial fayda gətirər, həm də məsuliyyətsizliyə son qoyar. Çünki məsuliyyətsizlik nəticəsində itki qaçılmazdır.

Balakənin inkişafı göz qabağındadır, lakin bu inkişafı kölgələyən məsuliyyətsizliklər aradan qaldırılmalıdır. Küçələrdə başıboş dolaşan mal-qara yalnız şəhərin simasını deyil, insanların təhlükəsizliyini də təhdid edir. İnkişafın yanında mədəniyyət, düşüncə və məsuliyyət də olmalıdır. Əks halda, texnologiyanın gətirdiyi rahatlıq, küçələrdəki bir inəyin məsuliyyətsizliyi ilə bir anda alt-üst ola bilər.

Unutmayaq: bir inəyin küçəyə çıxması sadəcə bir heyvanın məsuliyyətsizliyi deyil, sahibinin düşüncəsizliyinin göstəricisidir. Hər birimiz bu şəhərin, bu rayonun gələcəyinə cavabdehik. Balakənin işıqlı küçələrində, yaşıllıqlarında, parklarında gəzən uşaqların təhlükəsizliyi hər şeydən önəmlidir. Əgər biz məsuliyyəti unudsaq, inkişafın gətirdiyi gözəlliklər də bir gün mənasını itirəcək.

**Ramazan Abal**

# II Qarabağ müharibəsində Balakənimin ilk şəhidi



Onda Ömər Şəhid Məhəmməd Hudulov adına Meşəşambul kənd tam orta məktəbində oxuyurdu. Məktəbdə tez-tez hərbi vətənpərvərlik mövzusunda tədbirlər keçirilərdi. O vaxtlar odlar yurdu Azərbaycanımızın bir parçası olan Qarabağımız düşmən tapdağı altında idi. Tədbirlərin birində erməni vandalların şəhərlərimizi, kəndlərimizi darmadağın etməsindən, soydaşlarımızı, günahsız qadınları, qocaları, körpə uşaqları, xəsətləri əzab əziyyət verərək öldürməsindən söhbət getdi.

Birdən 11-ci sinif şagirdi Ömər ayağa qalxaraq:

–Mən, istəyirəm tezliklə əsgər gedim, düşməndən intiqam alım, torpaqlarımızı azad edim. Anabacılarımızı, körpələrimizi o vəhşilərdən qoruyum, lazım gələrsə, bu yolda şəhid olum dedi.

Onun bu odlu, alovlu çıxışından müəllimlər də, şagirdlər də çox təsirləndilər.

Sabir müəllim onun başını sığallayaraq:

–Tələsmə bala, o gün uzaqda deyil. Əsgərliyə də gedəcəksən, müharibə də olacaq, sənin kimi vətənpərvər, igid oğullarımızın sayəsində torpaqlarımız düşmən canynağından xilas olacaq.Nə qədər ağır olsa belə, şəhid də verəcəyik.

Ömər Qurdayev doğma kəndim Meşəşambulda dünyaya göz açıb. Zəhmətkeş ailədə böyüyüb. Təhsil aldığı məktəbdə ağıllı, tərbiyəli, mehriban, sözün yerini bilən bir şagird kimi tanınıb. Elə bu xüsusiyyətlərinə görə də müəllim-lərin və sinif yoldaşlarının sevimlisi idi. Təkcə onların yox, qohum-qonşuların, tanış-bilişlərin onu tanıyanların hamısının. Hər kəsə qarşı bir doğmalıq, bir istilik vardı onda...

İşgüzarlığına, qayğıkeşliyinə də söz ola bilməzdi. Qonşuları, qonşu uşaqlarını çox sevərdi. O balaca, arıq canıyla hər kəsin köməyinə yetişməyə çalışardı.

Ev heyvanlarına qulluq etməyi xoşlayardı. Mal tövləsini tərtəmiz saxlayardı. Ata qarşı xüsusi sevgisi var idi. Anasının dediyinə görə atı şampunla çimizdirər, qurudar, tumarlayardı. Ata minib kəndi gəzməyi, təbiətin füsunkar gözəlliyini seyr etməyi, Mazım çayının şırıltısına, durna gözlü bulaqların zümzüməsinə, quşların cəhcəhinə qulaq asmağı çox sevərdi. Doğma kəndinin hər qarış torpağına, daşına, gülünə, çiçəyinə bələd idi.

Onu da qeyd edim ki, ailənin maddi durumu çətin olduğuna görə məktəbli ola-ola ata qoşqu qoşaraq kiminin əkin sahəsinə kultivasiya çəkər, kiminin kartofunu çıxardar, araba ilə yük daşıyıb pul qazanar, evə lazım olan ərzaqları alardı, yaxud pulu anasına verərdi:

Bir dəfə Ömər görür ki, soyuducu boşdur, anasına deyir:

—Narahat olma, ana. Soyuducunu özüm dolduracağam.

Elə bil Ulu Yaradan nə qədər yaxşı xüsusiyyətlər varsa, hamısını bizim qəhrəmanımızın üzərinə cəmləşdirmişdi, məsumluğu, zəhmətsevərliyi, dostluqda sadiqliyi, doğma Vətənə, xalqa bağlılığı...

Anasına çox bağlı idi, onun bir sözünü iki eləməzdi. Bir dəfə anası ağır əməliyyat olunmuşdu. Xəstəxanadan çıxanda o istədi ki, sağalınca bacısıgilə getsin. Ömər anasına qəti etiraz edir.

–Nə danışırsan, ana? Sən bizim hər birimizin əziyyətini çəkmisən . Mən buna imkan verməərəm, özüm baxacağam sənə...

Həqiqətən anasına lazım olan hər cür qulluq göstərir, onun rahatlığını təmin edir, dərmanlarını, yeməyini, içməyini vaxtında verir. Ev-eşiyi yığışdırır, paltar yuyur, çörək bişirmək üçün xəmir yoğurur. Ömər belə oğul idi...

### 2020 -ci il. İyul ayı... Vaxt vədə yetişdi

Ömər Qurdayev Milli Orduya müddətli hərbi xidmətə çağırıldı.

Ordu sıralarında olduğu artıq üçüncü ay idi. Onun xidmət etdiyi hərbi hissə Füzulidə yerləşirdi. Bu cəbhənin ən qaynar yeri idi. Düşmən tez-tez təxribat törədir, iriçaplı silahlardan atəş açırdı.

### 27 sentyabr...

Zaman yetişmişdi. Ali Baş komandan öz qəti qərarını vermişdi. Həmin gün cəbhəyə yola düşən əsgər və zabitlər qazanacaqları qələbəyə inanırdılar. Təki Qarabağımız azad olsun, torpaqlarımızdan düşmən ayağı birdəfəlik silinsin. Tarix yazan igidlərimizin sırasında bizim Ömərin də imzası vardır. Ömərin xidmət etdiyi atıcı bölmələr döyüşlərin ən qaynar yerində - Füzulinin azad edilməsi uğrunda əməliyyatlarda iştirak edirdi. Balaca ürəyi köksünə sığmırdı Ömərin. Vətən torpaqlarını viran edən düşmənə qarşı nifrəti aşıb daşırdı. İlk gündən döyüş meydanına atılaraq düşmənə qarşı qəhrəmancasına vuruşdu. Vətən torpağını öz qanı ilə suvardı. Döyüş yoldaşlarının dediyinə görə Ömər bir dəfə yaralandıqdan sonra yenidən ayağa qalxaraq düşmən qabağında dik dayanır, sanki öz canı ilə düşmənə sipər çəkir. Yadıma Lev Tolstoyun "Hacı Murad" povesti düşdü. Çar rusyasının əsgərlərinə qan udduran Hacı Murad son anda sinəsini saysız-hesabsız güllələr dəlsə də düşmənin qabağında əyilmir, ölümün gözünə dik baxır. Eynən Ömər də... Bu ölüm-dirim savaşında adını tarixə yazaraq rayonumuzun, kəndimizin ilk şəhidi kimi müqəddəs zirvəyə ucaldı. Ana torpaq şəhid balasını öz qoynuna aldı, cəsur, igid, nur üzlü balamızı...

### Ananın ürəyini paramparça edən oğlumuzu...

Dövlətimiz Ömər Qurdayevin Vətən qarşısındakı xidmətlərini layiqincə qiymətləndirərək ölümündən sonra Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Vətən uğrunda", "Xocavəndin azad olunması", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Şəhidimizin evi hər gün neçə-neçə adamın ziyarət etdiyi məkandır. Meşəşambulluların yaxın, uzaq yerdə yaşayan insanların, müəllimlərin, şagirdlərin...

Bu da Ömərin kiçik ev muzeyi. Burada şəhidimizin böyük portreti, divardan asılmış foto-stendlər, ona məxsus əşyalar, əsgər paltarı diqqəti cəlb edir. Bütün bunlara tamaşa etdikcə sanki onun ömür dünyasına səyahət edirəm, qəhrəmanımızın keçdiyi qısa, lakin şərəfli, mənalı həyat yoluna...

Oğlunun şəhid xəbərini alan kimi bir-iki günə saçları ağappaq ağaran, ürəyi qana dönən, oğlu üçün qurduğu xəyal dünyası dağılan, üz-gözündən kədər yağan, gözlərinin yaşı ürəyinə axan ananın dərdi böyükdür. Oğul dərdi. Buna dözə bilməyən ananın nə gecəsi var nə gündüzü. Hələ də gözü yolda, qulağı səsdədir. Onunla təsəlli tapır ki, aslan oğlu vətən yolunda şəhid olub, xalq üçün, hər birimiz üçün.

Sevil xanımın dediklərindən: Ömər mənim sağ əlim idi.Hər işdə yaxın köməkçim olub. Hərbi xidmətə yola düşüncə bir gün qabağa mənə dedi ki, ana,olarmı sonuncu dəfə yanında yatım. "Əlbəttə, oğlum"- dedim.

Ana-bala sübhədək yatmadıq. O sevdiyi qızdan danışdı. Oğul, dedim narahat olma, sən sağ-salamat gedib qayıt, qızın elçiliyini özüm edəcəyəm, razı olmasa, onu qaçırdacağam - deyə onunla məzələndim. Ancaq...

Yaralı ananın sözləri boğazında tıxanıb qaldı. Sonra ana söhbətini davam etdirərək:

—Bir dəfə yuxumda gördüm ki, müharibə meydanındayam. Qorxub böyük bir kolun arxasında gizlənmişəm. Arxamda kiminsə dayandığını hiss etdim. Dönüb baxanda gördüm ki, oğlumdur. Heç bilmədim, ona necə sarıldım. "Ay oğul, indiyə qədər harada idin" -deyə soruşdum. Nə desə yaxşıdır: "Ana hər gün sənin yanındayam, heç nədən qorxma. Ancaq sən məni görə bilməzsən".

Bu yuxudan sonra özümü ələ almağa çalışdım. Bildim ki oğlum ölməyib. Şəhid balamın ruhu göylərdə dolaşır, hara gedirəmsə arxamca gəlir, qolunu boynuma salır, başımı sığallayır, əvvəllər olduğu kimi...

Yaralı ananın dediklərinə qulaq asdıqca ürəyimdən bir bayatı keçdi:

**Analar yanar, ağlar**
**Günləri sanar ağlar,**
**Dönər göy göyərçinə**
**Yollara qonar ağlar.**

Ömərin oxuduğu məktəbdə onun keçdiyi döyüş yolu ilə bağlı foto-stend təşkil olunub. Burada tez-tez tədbirlər keçirilir.

Məktəb direktoru Sabir Qazaxovun dediklərindən: Mənim üçün Ömər Qurdayev sadəcə bir şagirdin adı deyil, o bizim məktəbin dərsliklərə sığmayan qəhrəmanlıq dərsi, yarımçıq qalmış bir gəncliyin bütöv bir millətə çevrilmiş qürurudur. Öməri xatırlayanda gözlərimin önünə gələn onun baxışlarıdır. O, dərslərdə çox sakit, təmkinli, sanki ruhunda böyük bir fırtınanı gizlədən lakin zahirən dəniz kimi durğun bir uşaq idi:

Onu digərlərindən fərqləndirən ən mühüm cəhət məsuliyyət hissi idi. Verilən tapşırığa elə bir ciddiyyətlə yanaşardı ki, biz müəllimlər bəzən onun yaşından böyük olan bu yetkinliyinə heyran qalırdıq. İndi anlayıram ki, Ömər sanki özünü daha böyük bir imtahana - Vətən imtahanına hazırlayırmış.

Şəhidlik xəbəri məktəbə çatanda sanki zaman dayandı. Müəllim yoldaşlarımın gözlərindəki o ifadəni heç vaxt unutmayacağam, həm sonsuz kədər, "həm də biz bir Qəhraman böyütmüşük" deyən o ağır qürur. Ömər partada əyləşib riyaziyyatın düsturlarını, tarixin səhifələrini öyrənirdi. Amma o öz şəhadəti ilə ən çətin düsturu-canını fəda edərək torpağı vətən etməyin yolunu öyrətdi.

Mənim üçün Ömər indi bu məktəbin hər küncündədir. Səhər zəngi çalınanda onun ruhunun dəhlizlərdə dolaşdığını hiss edirəm. Jurnalist dostlarımız məndən Ömər haqqında xatirə istəyəndə deyirəm: "Ömər xatirə deyil, canlı həqiqətdir". O, bu məktəbin bitməyən dərsidir. Hər il yeni birinci siniflər gələndə onlara ilk dərsi mən yox, Ömər keçir. Onun şəkli qarşısından keçən hər şagird mənliyini, kimliyini və vətənin hüdudlarını tanıyır. Ruhu şad olsun şəhid balamızın...

Kəndimizin ilk şəhid balası... Ən böyük arzusu idi ki, torpaqlarımız işğaldan azad olsun. Qəhrəmanımızın arzuları gerçəkləşib, lakin o, bu günü görmədi. Bizim Ömərin ruhu sülh rəmzi olan ağ göyərçinə dönərək vətənimizin səması üzərində pərvaz edir. Onun əziz xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaq.

**Havva Zahid qızı**
**Jurnalist**

**P.S.**Havva xanım Anqbazova uzun illər,sovet dövründə indiki "Yeni Balakən" qəzetinin əcdadı olan "Şən Həyat" qəzetində jurnalist olaraq çalışıb. Ən son dil-ədəbiyyat müəlliməsi olaraq işlədiyi Yeni Şərif kənd tam orta məktəbindən təqaüdə çıxan hörmətli jurnalistimizin "Yeni Balakəndə" Havva Zahid qızı imzası ilə ilk yazısıdır.Havva xanımın gözəl qələmi var, ruhuyla yazarkən duyğudan sətirlər yaradır..Havva Zahid qızına –xoş gəldin-deyirik doğma, yazıb yaratdığı qəzetə.Sizi burda görmək, yazılarınızı oxumaq həqiqətən xoşdur. Davamını gözləyirik..

# "Qızıl Qələm işığında bir şair ömrü"- Xutra Ramazan 78

Yeni Şərif kənd Sənətkarlıq evində tanınmış şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü, AYB-nin fəxri diplomçusu, "Qızıl Qələm" mükafatı laureatı Xutra Ramazanın ad günü münasibətilə "Qızıl Qələm işığında bir şair ömrü" adlı ədəbi-bədii gecə keçirildi.







Tədbirdə Rayon İcra Hakimiyyətinin, Rayon Mədəniyyət Mərkəzinin əməkdaşları, rayon ziyalıları,xaricdə yaşayan iş və sənət adamları, mədəniyyət və incəsənət kollektivləri, geniş əhali kütləsi və qonaqlar iştirak etdilər.

Görüşdə Sənətkarlıq Evinin direktoru Cəmilə Çaxiyeva və bədii rəhbəri Mehriban Rəhmanova şairin həyatı və yaradıcılığı haqqında geniş məruzə etdilər. Qeyd olundu ki, o bir çox mükafatlara, o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinin yubiley medalı və Ulu Öndər Heydər Əliyevin yubiley medallarına, eləcə də Mahmud Kaşqari adına Beynəlxalq Fondun mükafatına layiq görülmüşdür.

Görkəmli söz ustası Ramazan Xutra azərbaycan və mənsub olduğu avar dillərində yazıb-yaradan şair olaraq bu iki xalqın ədəbiyyatının və mədə-niyyətinin inkişafı sahəsində mühüm rol oynayır. Şair azərbaycan dilində səkkiz kitab, 20-dən çox poema, uşaq ədəbiyyatı nümunələrinin müəllifidir. Onun Vətən Müharibəsində canlarını fəda etmiş şəhidlərimiz, döyüş meydanlarında hünər göstərmiş qazilərimiz və öz dəstəsi ilə Şuşa qalasına birinci girmiş Vətən Müharibəsi Qəhrəmanı Ramazan Hudulova həsr olunmuş "Qartallar Şuşaya uçur" kitabı böyük rəğbət görmüşdür.

Yeni Şərif kənd tam orta məktəbin şagirdləri Osbanova Əsiyyətin, Mağliyeva Albinanın poemadan söylədikləri parçalar maraqla qarşıladı.

Tədbir iştirakçıları Ramazan Xutranın həyat və yaradıcılığına həsr olunmuş videoçarxa da baxdılar.

Şairin kitabları və aldığı mükafatlarından ibarət sərgi təşkil olunmuşdu.

Tədbirdə Balakən Rayon İcra Hakimiyyətinin nümayəndəsi Fariz Nəcəfov, Qabaqçöl Polis Şöbəsinin Rəisi Vilayət Allahverdiyev,veteran müəllim-Meysarat Qaysayeva, Bakıda Avar Milli Mədəniyyət Mərkəzinin rəhbəri Mamed Nooyev, Yunan – Roma güləşi üzrə Aərbaycanın Əməkdar Məşqçisi İsmayıl Copsiyev, Rayon Mərkəzi Xəstəxanasının şöbə müdiri Rəisət Tınayeva, kimyaçı-alim Abdulla Musayev, Yeni Şərif tam orta məktəbin müəllimi Həvva Anqbazova, Şərif 1 saylı tam orta məktəbin müəllimi Adilə Hacıyeva, ziyalılar: Fatma Xutrayeva, Musa Dibirov, Musa Behalov, Hacı Osbanov, Maqsud Bazarov və başqaları çıxış edərək şairlə olan xatirələrini,əsərləri barədə fikirlərini,onunla bağlı səmimi duyğularını iştirakçılarla bölüşdülər .

Çıxış edənlər şair Xutra Ramazanı ad günü münasibətilə təbrik edərək ona yaradıcılıq uğurları arzuladı, onun çoxşaxəli yaradıcılığı yolundan söz açdılar. Qeyd olundu ki, sənətkarın yaradıcılığı vətən sevgisindən, doğma yurduna bağlılığından, təbiətin gözəlliyindən, bu gözəlliyi özündə yaşayan insanların həyat tərzindən qaynaqlanır. Şairin alovlu vətənpərvər və əsl beynəlmiləlçi olduğu da vurğulandı.

Gecədə qiraətçilər və məktəb şagirdləri şairin şeirlərini səsləndirdilər. Tələbə qız Ayişə Xanayevanın, məktəbli Xacay Əhmədiyevanın ifasında şairin avarca yazdığı şeirləri böyük maraqla qarşılandı.

İncəsənət kollektivlərinin çıxışları, Qabaqçöl qəsəbə Folklor klubunun "Cahan" avar rəqs qrupunun rəqsləri, eləcə də Zaqataladan gəlmiş rəqqasə Zöhrənin çıxışı alqışlarla səbəb oldu.

Tamburçu Şamil Terçiyevin şairin sözlərinə yazılmış mahnıları, Səməd Qoqayevin ifa etdiyi musiqilər gecəyə gözəllik qatdı.

Sonda istedadlı şair Xutra Ramazan tamaşaçılara və Sənətkarlıq Evinin kollektivinə minnətdarlığını bildirdi.

**Redaksiyadan:** "Yeni Balakən" qəzeti rayon mədəniyyət müəssisələrinin fəaliyyətini həmişə diqqətlə izləyir.Qeyd edək ki, bu sahədə məqsədyönlü işlər görülür. Yeni Şərif kənd Sənətkarlıq evinin kollektivinin fəaliyyəti bu baxımdan fərəh doğurur. Sənətkarlıq Evinin direktoru Cəmilə Çaxiyeva, bədii rəhbəri Mehriban Rəhmanova, Mesed Papaxova işinə yaradıcı yanaşaraq rəngarəng və maraqlı tədbirlər həyata keçirir. Bu işgüzar kollektivə uğurlar diləyirik.

**Yeni Balakən**

# Təhsil işçilərinin sentyabr konfransı




Avqustun 31-də Şəki-Zaqatala Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən Balakən rayonunda 2026–2027-ci tədris ili üzrə təhsil işçilərinin sentyabr konfransı keçirilib.

Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, daha sonra şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdiri Günay Mahmudova, Balakən RİH-nın İctimai-siyasi və Humanitar məsələlər sektorunun müdiri Fariz Nəcəfov, Azərbaycan Respublikasının Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının Balakən rayon komitəsinin sədri Ramazan Molulov, məktəbəqədər, ümumi və məktəbdənkənar təhsil müəssisələrinin rəhbərləri, qabaqcıl təhsil işçiləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Balakən rayonu üzrə təhsil sektorunun müdiri Mehparə Mirzəyeva açılış və tədbirin məqsədi,keyfiyyət fəaliyyət planı haqqında məlumat vermiş, rayon üzrə təhsil nəticələrinin analitik təqdimatını isə sektorun aparıcı məsləhətçisi Sevinc Musayeva təqdim etmişdir.Çıxışlarda təhsilin keyfiyyətinin yüksəldilməsi, şagird nailiyyətlərinin artırılması, müəllimlərin peşəkar inkişafının dəstəklənməsi və məktəblərdə səmərəli idarəetmənin təmin edilməsi ilə bağlı əsas vəzifələr vurğulanıb.

Sonda müəyyən edilmiş hədəflərin həyata keçirilməsi və təhsil göstəricilərinin daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü fəaliyyətin davam etdirilməsinin vacibliyi qeyd olunub.

Konfransların ikinci günü panel müzakirələri ilə davam etdiriləcək.

**Yeni Balakən**


## İTMİŞDİR

**Şatrayev Nurmahama Məmməd** oğlunun adına verilmiş, 08BK606 qeydiyyqt nişanlı TOYOTA COROLLA markalı minik avtomobilinə məxsus nəqliyyat vasitəsinin qeydiyyat **Şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.



MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. H.Əliyev pr.40
www.yeni balaken.az
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100